

# Siyasi qurtuluşdan iqtisadi inkişafa

***Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında, eləcə də cəmiyyətin hər bir sferasında yeni bir dönüş yarandı. Ulu öndərin siyası uzaqgörənliyi nəticəsində ictimai-siyasi həyatda sabitliyin əldə edilməsi ilə yanaşı, ölkə iqtisadiyyatının bərpası istiqamətində fəaliyyət sürətləndi. İqtisadiyyatın inkişafı üçün yaxın dövrdə nəzərdə tutulan tədbirlərlə yanaşı, strateji proqramlar və layihələrin işlənərək hazırlanmasına və reallaşdırılmasına başlanıldı. Eyni zamanda, iqtisadiyyatın uzunmüddətli dövr üçün strateji hədəfləri müəyyənləşdirildi.***

Müstəqilliyin ilk illərində ölkə iqtisadiyyatında müşahidə edilən tənəzzül tez bir zamanda aradan qaldırıldı və ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar qısa müddət ərzində hər bir vətəndaşın həyatında hiss olunmağa başlandı. Həmin dövrdə gerçəkləşdirilən islahatlar uzunmüddətli dövrdə Azərbaycan iqtisadiyyatında inkişaf trayektoriyalarını müəyyənləşdirdi. Ümummilli lider Heydər Əliyevin strateji baxışı liberal iqtisadi islahatlar yolu mülkiyyət münasibətlərinin yeni mərhələyə qədəm qoymasına, sənaye, kənd təsərrüfatı və eləcə də iqtisadiyyatın fərqli sektorlarında islahatların dərinləşməsinə səbəb oldu.

Bu dövrdə liberal iqtisadiyyatın, sosial ədalət prinsiplərinin fonunda ölkənin iqtisadi müstəqilliyinin qorunması istiqamətində ardıcıl fəaliyyətlər həyata keçirilməyə başlandı. MDB məkanında ilk dəfə olaraq torpaq islahatı, yeni mülkiyyət növlərinin formalaşması və inkişafı, sosial ədalət sisteminin formalaşması və gücləndirilməsi, eləcə də Azərbaycanın dayanıqlı inkişafa nail olunması üçün xarici iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Bu islahatlar strateji dövrdə Azərbaycan iqtisadiyyatının bünövrəsini formalaşdırdı.

Qısa müddət sonra, 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi” haqqında dünyanın 11 ən iri neft şirkəti ilə müqavilə imzalandı. Ümummilli liderin uzaqgörən siyasəti nəticəsində ərsəyə gələn bu anlaşma Azərbaycanın siyasi-iqtisadi müstəqilliyinin qorunub saxlanmasında xüsusi rola malik olmaqla bu gün də ölkənin valyuta ehtiyatlarının formalaşmasına töhfə verməkdədir.

Həmin dövrdə formalaşdırılan enerji siyasəti bu müqavilə ilə dünyanın ilk neft hasilatçılarından olan Azərbaycanı beynəlxalq enerji bazarlarında birbaşa iştirakçıya çevirdi. Nəticədə enerji resursları ölkəmiz üçün yalnız dövlət gəlirlərinin artması mənbəyi deyil, həmçinin ciddi geosiyasi amilə çevrildi. Azərbaycan dünya enerji təhlükəsizliyinə töhfə verən ölkə kimi tanındı. Bununla bərabər, Azərbaycanın qlobal arenada enerji təchizatçısı kimi müstəqil beynəlxalq siyasət yeritmək imkanları möhkəmləndi. Geosiyasi mövqelərimizin güclənməsi ilə yanaşı, bu müqavilə, eyni zamanda, Azərbaycan iqtisadiyyatına, əhalinin sosial rifahına ciddi müsbət təsir göstərdi.

“Əsrin müqaviləsi” ilk olaraq ölkənin beynəlxalq güvənini ciddi şəkildə artırmaqla xarici investisiya axınlarını sürətləndirdi. Bu investisiyaların böyük bir qismi enerji sektoruna yönəlsə də belə, sözügedən sərmayələrin ölkə iqtisadiyyatının digər sferalarına və işsizlik kimi sosial problemlərə müsbət mənada təsirsiz qalmadı.

Beləliklə, 1994-cü ildən etibarən Azərbaycan qlobal enerji bazarının ən böyük aktorları ilə rəsmi şəkildə əməkdaşlığa başladı. Ataşkəs sazişi və “Əsrin müqaviləsi” nəticəsində ölkə iqtisadiyyatının ən uzunmüddətli tənəzzül prosesi dayandırıldı və 1995-ci ildən başlayaraq tərəqqi meyilləri müşahidə edildi. Əgər ölkə iqtisadiyyatı 1995-ci ildə 11,8 faiz kiçilmişdisə, 1996-cı ildə 1,3 faiz artım dərin depressiyanın sonu oldu.

Təbii ki, hələ sürətli inkişaf dövrü qarşıda idi və Azərbaycan nefti ilk dəfə 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri ilə dünya bazarlarına çıxacaq, külli miqdarda neft gəlirləri ölkənin inkişafında, infrastrukturun bərpasında və sosial imkanların genişlənməsi – büdcə gəlirlərinin artmasında ciddi rol oynayacaqdı. Bu gün isə Azərbaycan artıq regionun ən inkişaf etmiş ölkəsidir. Azərbaycan regional proseslərə təsir imkanlarına malik olan dövlətdir. 1994-cü ildə Azərbaycan iqtisadiyyatının kiçik olmasına baxmayaraq, bağlanan “Əsrin müqaviləsi”ndə ölkəmizin maraqlarını qorumaq mümkün oldu. O zaman Azərbaycanın ümumi daxili məhsulunun həcmi 375 milyon manat idi. Ötən müddətdə isə ümumi daxili məhsulun həcmi 4,5 dəfə artıb. Büdcə gəlirlərimiz cəmi 100 milyon manat idi. Buna baxmayaraq, “Əsrin müqaviləsi”ndə öz dövlət və milli maraqlarımıza uyğun olaraq şərtlər xarici şirkətlərlə razılaşdırıldı. Bu da təbii ki, birbaşa ümummilli lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində mümkün oldu ki, Azərbaycan o zaman zəif ölkə olmasına baxmayaraq, “Əsrin müqaviləsi”ni öz maraqları çərçivəsində hazırlayıb imzalaya bildi.

İqtisadiyyatın bərpası və inkişafı dövrü kimi xarakterizə edilən 1993-2003-cü illərdə maliyyə-bank sektorunda müasir tənzimləmə sistemi formalaşdırmaqla sənaye, kənd təsərrüfatı, nəqliyyat, xidmət və digər sahələrinin inkişafına nail olundu. Bütün bunlar isə məşğulluğun təmin edilməsi, işsizlik və yoxsulluq səviyyəsinin azaldılması kimi strateji məqsədlərin gerçəkləşdirilməsinə öz müsbət təsirini göstərdi.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra iqtisadi islahatların sürətlənməsi ümumi daxili məhsulun həcminin illər üzrə artmasına səbəb olub. Sənayenin ümumi daxili məhsulda xüsusi çəkisi 1993-cü ilə nisbətən 12,6 faiz bəndi artaraq 2002-ci ildə 37,4 faiz təşkil etdi. Həyata keçirilən islahatlar nəticəsində ölkədə ümumi daxili məhsul istehsalı 1996-2002-ci illər ərzində 71 faiz artaraq 6,1 milyard manata çatdı.

MDB ilk dəfə olaraq həyata keçirilən torpaq islahatları və sahibkarların dövlət tərəfindən daha yaxından dəstəklənməsi siyasəti özünü kənd təsərrüfatı istehsalında da göstərdi. Torpağın özəlləşdirilməsi sayəsində 857,6 min ailə torpaq payına sahib oldu. Orta hesabla bir ailəyə 1,6 hektar, cəmi isə 1375,5 min hektar torpaq sahəsi verildi. Torpaq payı almış ailələrdən 2589-u kəndli (fermer) təsərrüfatı kimi rəsmi qeydiyyatdan keçdi. Həmin dövrdə kənd təsərrüfatı istehsalının genişləndirilməsi həm ərzaq təminatı, həm də ərzaq təhlükəsizliyi baxımdan vacib idi.

1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənərək 128-ə yüksəldi, xarici ölkələrlə ticarət dövriyyəsi 1993-cü illə müqayisədə 2,8 dəfə artaraq 3,8 milyard ABŞ dollar təşkil etdi. Bu illər ərzində Azərbaycanda xarici investisiyalı müəssisələrin sayı da kəskin surətdə yüksəldi. Belə ki, əgər 1996-cı ildə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin sayı 602-yə bərabər idisə, 2002-ci ildə bu rəqəm 3,5 dəfə artaraq 2104 oldu, xarici şirkət və ya fiziki şəxslərin iştirakı ilə yaradılmış birgə müəssisələrin sayı isə 94,1 faiz artaraq 957-yə çatdı.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artaraq 910,2 milyon manata yüksəldi, xərcləri isə 72,2 dəfə artaraq 931,8 milyon manat təşkil etdi. Büdcə kəsirinin ümumi daxili məhsulda xüsusi çəkisi 1993-cü ildəki 7,1 faizdən 2002-ci ildə 0,4 faizə endirildi. Dövlət büdcəsinin xərclərində sosial müdafiə və sosial təminat xərclərinin payı ildən-ilə artdı. 1993-cü ildə bu məqsədlərə 1,1 milyon manat və ya ümumi büdcə xərclərinin 8,5 faizi sərf olunmuşdusa, 2002-ci ildə bu xərclər 190,3 milyon manata çatdırılıb ki, bu da büdcə xərclərinin 20,4 faizinə bərabər idi.

Göründüyü kimi, 1993-cü ildən sonra aparılan islahatlar Azərbaycanda dayanıqlı iqtisadi sistemin formalaşmasına səbəb olub. Nəticədə ümummilli lider Heydər Əliyev hakimiyyətə gələndən sonra iqtisadi tənəzzülün qarşısı alınmaqla yanaşı, davamlı iqtisadi inkişaf bərpa olunub. Aparılan islahatlar iqtisadi-sosial sferada tərəqqiya baza yaradıb.

Əsası ümummilli liderin rəhbərliyi ilə formalaşan sosial-iqtisadi inkişaf strategiyası son 17 ildir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ötən müddətdə müasir iqtisadi inkişaf prinsiplərinə əsaslanaraq reallaşdırılan islahatlar Azərbaycanda sürətli və dayanıqlı inkişafı daha da sürətləndirib və ölkəni regionun aparıcı dövlətlərindən birinə çevirib.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***